**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by** **Kış 2021/ 8-4**
https://dergipark.org.tr/tr/pub/atdd https://doi.org/10.46868/atdd.196

# Bəxtiyar Vahabzadənin şeirlərində milli-mənəvi yaddaş

**Günəş Quliyeva*** 
**ORCID: 0000-0002-7147-7151**

## Xülasə

Bəxtiyar Vahabzadənin milli-mənəvi yaddaşı bütövlükdə Vətənə, yurda oğul olmaq, milli dəyərləri yaşatmaq, zorakılığa, müstəbidliyə qarşı üsyan etmək düşüncəsinə hesablanıb. Məlumdur ki, sovet rejiminin zorən tətbiqi ədəbiyyatımızda az öncə daha qabarıq şəkildə özünü büruzə verməyə başlayan milli ləyaqət, özünüdərk duyğusunun gəlişməsini əngəllədi, bu prosesi yarımçıq qoydu. Eyni zamanda, konkret olaraq xalqın milli oyanış əzminə güclü zərbə vurdu. Rejimin antimilli təbliğat kompaniyası, xalqı öz kökündən, milli kimliyindən, keçmişindən, tarixi statusundan məhrum etmək siyasəti Azərbaycan insanının dünya müstəvisində təklənməsinə gətirib çıxartdı. Öz genetik kodu və milli müəyyənliyi ilə bağlı düşüncələrinin bədii mətnə köçürülməsinin qadağalarını yaşaması, həmçinin, dünya məkanında gedən proseslərdən təcrid olunaraq qapalı məcrada fəaliyyət göstərməsi ona sosial statusunu fərqləndirmə və fərdiləşdirmə imkanı vermədi. B.Vahabzadə xalqımızın yüksək insani keyfiyyətlərini, əxlaqi dəyərlərini, mənəvi məziyyətlərini təcəssüm etdirən xalq yaradıcılığından ustalıqla bəhrələnən və bu bəhrələnməni istiqlal, müstəqillik savaşımızın tərənnümü istiqamətində böyük ustalıqla sərf etməyə nail olan qüdrətli sənətkardır. B.Vahabzadə bütün yaradıcılığı boyunca mənsub olduğu xalqı milli oyanışa, öz-özünü dərindən dərk etməyə, bu yöndə öz gücünü, qüdrətini, istedadını, intellektual potensialını hərəkətə gətirməyə səsləyib.

**Açar sözlər:** yaddaş, milli mənəvi yaddaş, poetik düşüncə, ana dili, türkçülük, milli ləyaqət, özünüdərk.

**Gönderme Tarihi: 24/06/2021** **Kabul Tarihi:20/12/2021**

* *BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının fəlsəfə doktoru proqramı üzrə dissertantı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin müəllimi, Bakü- Azerbaycan, g.quliyeva1981@gmail.com*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
Quliyeva, G. "Bəxtiyar Vahabzadənin şeirlərində milli-mənəvi yaddaş.''*Akademik Tarih ve Düşünce Dergisi*, 8-4, 2021, ss.1922-1934.

# National spiritual memory in the poems of Bakhtiyar Vahabzade

**Gunesh Guliyeva** *
**ORCID: 0000-0002-7147-7151**

**Abstract**

Bakhtiyar Vahabzadeh's national-spiritual memory is entirely calculated on the idea of being a son of the Motherland, the country, the preservation of national values, rebellion against violence and tyranny. It is known that the violent application of the Soviet regime hindered the development of national dignity and self-awareness, which had only recently begun to manifest itself in our literature, and interrupted this process. At the same time, it dealt a strong blow to the national awakening of the people. Anti-national propaganda campaign of the regime, the policy of depriving the people of their roots, national identity, past and historical status, has led to the isolation of the Azerbaijani people in the world. The fact that his ideas about his genetic code and national identity were not translated into the literary text, as well as his isolation from the processes taking place in the world, did not allow him to differentiate and individualize his social status.B.Vahabzadeh is a powerful artist who skillfully uses the folk art that embodies the high human qualities, moral values and moral merits of our people and manages to use this benefit to glorify our war of independence. Throughout his career, Vahabzadeh called his people to the national awakening, deep self-awareness, to mobilize their strength, power, talent and intellectual potential in this direction.

**Keywords:** memory, national spiritual memory, poetic thinking, mother tongue, Turkism, national dignity, self-awareness.

**Received Date: 24/06/2021** **Accepted Date: 20/12/2021**

---

* *Dissertant of the Doctor of Philosophy program of the "History of Azerbaijan Literature" department of Baku State University, teacher of the Azerbaijan State Pedagogical College under the Azerbaijan State Pedagogical University, Bakı- Azerbaijan, g.quliyeva1981@gmail.com*

***You can refer to this article as follows:***
Quliyeva, G. "Bəxtiyar Vahabzadənin şeirlərində milli-mənəvi yaddaş.'' *Academic Journal of History and Idea,* 8-4, 2021, pp.1922-1934.

# Память национальной нравственности в стихах Бахтияра Вахабзаде

**Гюнеш Гулиева***
**ORCID: 0000-0002-7147-7151**

**Резюме**

Память национально-моральных принципов, о которых писал Бахтияр Вахабзаде полностью исходят из таких идей как: быть сыном Родины, сохранения национальных ценностей, борьбы против насилия и произвола. Всем известно, что жесткое применение советского режима замедляло и остановило развитие процесса народного достоинства и чувства самосознания, которые только недавно стали проявляться в нашей литературе. В то же время советский режим нанес существенный удар конкретно по решимости национального пробуждения народа. Антинациональная пропагандистская кампания режима, а также политика лишения людей их корней, национальной идентичности, прошлого и исторического статуса, привела к изоляции азербайджанского человека на мировой арене. Отсутствие возможности запечатлеть в своих работах представления о своем генетическом коде и национальной идентичности, оторванность писателя от процессов, происходящих в мире, а также работа в закрытых условиях, не позволяли Бахтияру Вахабзаде дифференцировать и индивидуализировать его социальный статус. Б.Вахабзаде - великий мастер, который смог использовать народное искусство, воплощающее в себе высокие человеческие качества, моральные ценности и заслуги азербайджанского народа, и мастерски употребил это благо в целях борьбы за независимость и самоопределения народа. На протяжении всего своего творчества, Б. Вахабзаде призывал народ к национальному пробуждению, глубокому самосознанию, мобилизации своей силы, мощи, таланта и интеллектуального потенциала в этом направлении.

**Ключевые слова:** память, национально-моральная память, поэтическая мысль, родной язык, самосознание, тюркизм, национальное достоинство.

**Получено: 24/06/2021** **Принято: 20/12/2021**

**Диссертант программы доктора философии кафедры истории Азербайджанской литературы БГУ, преподаватель Азербайджанского Государственного Педагогического Колледжа при Азербайджанском Государственном Педагогическом Университете, Баку-Азербайджанг, quliyeva1981@gmail.com*

***Ссылка на статью:***
Quliyeva, G. ″Bəxtiyar Vahabzadənin şeirlərində milli-mənəvi yaddaş.’’ *академическая история и мысль*, 8-4, 2021, сс.1922-1934.

**Giriş**

Bəxtiyar Vahabzadə yaradıcılığı bütövlükdə Türk dünyasının mənəvi birliyi və yüksəlişi ilə yaxından əlaqəli olmuşdur. Bu baxımdan o, ədəbi-ictimai camilərdə təkcə azərbaycanlılar tərəfindən yox, həm də çağdaş Türk dünyasının aydınları, düşüncə adamları, sadə insanları tərəfindən sevilən, yüksək dəyərləndirilən bir şəxsiyyətdir. Onun Bəxtiyarlığı ilk növbədə öz xalqı tərəfindən sevilməsindədir.

Dünyaşöhrətli qırğız yazıçısı Çingiz Aytmatov Bəxtiyar Vahabzadənin "Şeirlər" kitabından aldığı təəssüratı belə ifadə edir: "Həmin şeirlərdə zaman yaşayır; bütün "qayğı yükümüz"ə tab gətirən, dərd-sərimizə şərik olan zaman! Şeirlərinin qüdrəti də məhz bundadır.[1]

Amerika ədəbiyyatşünası Sterken Kinzer Bəxtiyar Vahabzadə yaradıcılığının istiqlalçı mövqeyini dəqiq dəyərləndirərək doğru qeyd edir ki, "o, sovet hakimiyyəti illərində müxtəlif bədii üsullardan – alleqoriya və bənzətmələrdən istifadə edərək mövcud quruluşa qarşı etiraz səsini ucaldan əyilməz bir sənətkardır"[2]

Bəxtiyar Vahabzadə sovet rejiminə, eləcə də hər cür totalitar sistemə qarşı apardığı "Bizim haqqımızı boğur siyasət, haqqı sübut edən şahidimiz yox" mücadiləsi ilə yenilməz, əbədiyaşardır. Onun poeziyası bəşəri həqiqət daşıyıcısı, azadlıq uğrunda savaşa qalxmış qədim bir xalqın haqq bağıran səsi ola bilmək səlahiyyəti ilə əbədidir. Bilirsən ki, "parçala, hökm sür", "ayır-buyur" siyasəti üzərində bərqərar olmuş totalitar sistemin zülmünə məruz qalmış xalqın daxili, iç ağrısını yalnız Bəxtiyar Vahabzadə kimi qüdrətli bir şair belə reallıqla təsvir edə bilərdi:

Özümüz yanırıq öz dərdimizə,
Haqqı sübut edən şahidimiz yox.[3]

Bəxtiyar Vahabzadə "bütün yaradıcılığı boyu zamanla çarpışıb, fələyin gərdişlərinə qarşı çıxıb, insanlığın taleyüklü problemlərinin çözülməsinə çalışıb" və bu yolda hər cür çətinliyə əsl vətəndaş mövqeyindən sinə gərməyi bacaran sənətkardır. "O, bədii sözü iqtidarın təsir dairəsindən tamam uzaqlaşdırıb, mədhiyyəçilikdən, şablonçuluqdan, şüarçılıqdan, pafosdan qurtarıb. Bəşər oğlunun ən ümdə hiss və həyəcanlarını, ülvi duyğularını tərənnüm

[1] *Türk dünyasının Bəxtiyarı,* Təfəkkür nəşriyyatı, 2002, səh.198.
[2] *Türk dünyasının*....s.197.
[3] Bəxtiyar Vahabzadə, Əsərləri, C.VI , Elm nəşriyyatı, Bakı 2008, s.14

edərək ədəbiyyatın güc və qüdrətini təzədən özünə qaytarıb, nəticədə iki əsrin ən narahat, gözlənilməz, üsyankar, humanist, milli, yurdsevər, fəlsəfi şairi kimi təsdiqlənib.[4]

**1-Milli-mənəvi yaddaş**

B.Vahabzadə üçün milli müəyyənlik, yəni milli-mənəvi yaddaş anlayışının təməlində hər şeydən əvvəl ana dili, eyni zamanda, türkçülük anlayışı dayanırdı. Böyük şair əbədi bir ehkam kimi qəbul etmişdi ki, hər xalqın milli varlığı onun ana dilinin varlığından asılıdır. Bu yöndən o, görkəmli türk alimi Faruq Qədri Teymurtaşın mövqeyi və fikirləri ilə tam razıdır ki, dil məsələsi milli müdafiə məsələsidir. Dilimizi qorumaq vətəni və milləti qorumaqla birdir. “Çünki dil vətən qədər əzizdir. Dil də bayraq kimi, ailə kimi müqəddəsdir... Dil olmayınca millət olmaz. Milli mədəniyyətin baş ünsürü dildir”[5]

Ona görə də böyük şair “Ana dili” adlı şeirində öz dilinə, doğma musiqisinə, mədəniyyət abidələrinə dönük çıxanlara qarşı öz asiliyini ifadə edir, “Vətən çörəyi sizlərə qənim olsun” yazırdı. Bəxtiyar Vahabzadənin milli-mənəvi yaddaşı bütövlükdə Vətənə, yurda oğul olmaq, milli dəyərləri yaşatmaq, zorakılığa, müstəbidliyə qarşı üsyan etmək düşüncəsinə hesablanıb. B.Vahabzadə bu düşüncəsinin bəxtiyarı, vətəndaşı idi. O dərəcədə ki, hətta sevimli oğluna həsr etdiyi şeirdə belə, hər şeydən əvvəl ona əsl vətəndaş olmağı, vətəni sevməyi, yurd haqqına etinalı olmağı tövsiyyə edir. Vətənin, milli-mənəvi dəyərlərin qorunmasını hər cür xoşbəxtlikdən, maddi nemətlərdən üstün tutan şair yazırdı:

Keşik çəkmək!
Şərəf güdmək!
Bundan böyük şərəfmi var?
Şərəf güdən özü dönüb şərəf olar.
Əsgər kimi sev Vətəni.
...İstəyirəm
Sən alışıb, sən yanasan əsgər kimi!
İmanına güvənəsən,
İnamına inanasan əsgər kimi.
Yeri gəlsə öz canından
Keçməyi də bacarasan əsgər kimi![6]

---

[4] Ramazan Qafarov, *Bəxtiyar Vahabzadənin əsərlərinin VIII cildinə yazılmış önsöz, (yayınevi yok),* Bakı 2009, s.3.
[5] Bəxtiyar Vahabzadə, *Əsərləri,* C.XII. (Yayın evi yok), Bakı 2009, s.117.
[6] Bəxtiyar Vahabzadə, *Əsərləri,* C.II, Azərnəşr, Bakı 1975, s.136.

**2-Genetik kod-yaddaş**

Onun poetik və milli yaddaşı qısa ömürdə doğmaca evinə dönük çıxanlara, yalnız "dağları yox, dənizləri yox, eyni zamanda elini, dilini satanlara" asi idi. Təsadüfi deyil ki, B.Vahabzadə elinə, torpağına, milli dəyərlərə xəyanət edənlərə, milli satqınlara həqarət edərək onları "yağıya, yada ən aciz kölə" adlandırırdı. Bu mövzuda o, Türk dünyasının bütün fikir babaları, aydınları ilə həmrəy idi. Bütün tərəqqipərvər sənət adamlarını düşündürən və narahat edən problemlər, milli-mənəvi yaddaş həyəcanları onun da yaradıcılığının aparıcı mövzularından biri idi. Məsələn, "Calaq" şeirində xəstə bir uşağın ürəyini sağlam meymun balasının ürəyi ilə əvəz edən amerikalı həkimlərə qarşı etirazını bildirən B.Vahabzadə, bu mənada, bəşəriyyətin gələcəyi sarıdan narahatlıq keçirən bütün fikir adamları ilə həmrəydi. Şair haqlıdır ki, heyvan ürəyi daşıyan bir uşaq gələcək fəaliyyətində mütləq heyvani dəyərlərlə yaşayacaq, bəşəriyyəti fəlakətə sürükləyəcək:

O peyvənd cocuğun xəstə köksündə,
Meymunun qoz boyda ürəyi çarpar.
Nələr eşidilər döyüntüsündə? –
Yalnız meymuna xas miskin arzular.
...Cılız duyğuları ülvi hisslərə,
Pis qanı saf qana qarışdıran var.
Qatıb kif atmışları tərtəmizlərə,
Adini əsillə barışdıran var![7]

İnsanlığa xəyanətlə üzləşən bu cür "elmi kəşflərə" qətiyyətlə etiraz bildirən şair cəmiyyətin həyatını fəlakətə sürükləyənlərə üz tutub milli-mənəvi fikir ucalığından, türk insani düşüncəsindən səsləniş edir ki, hansı fitnə-fəsada əl atmağınıza baxmayaraq, heç vaxt unutmayın ki, "Qurd ürəyi yemiş Türk oğluyam mən, mənim millətimə toxunmayın siz!" Yəni onu cılızlaşdırmağa, adiləşdirməyə cəhd etməyin. Öz nadan imkanlarınıza söykənərək dahilər başına çıxmaqdan çəkinin.

Görkəmli şair sonralar "Panorama" qəzetinə verdiyi müsahibəsində belə xatırlayacaqdı: "Mən bu şeiri yazandan bir qədər sonra Birləşmiş Millətlər Təşkilatı Biologiya sahəsindəki bu kəşflərin dayandırılması barədə xüsusi qərar çıxartdı. Bu qərar mənə bu barədəki düşüncələrimi dəqiqləşdirməyə imkan verdi və mən "Hara gedir bu dünya?" adlı pyesimi yazdım. Bu pyesdə dramatik konflikt insanlıqla insanlığa qarşı çevrilmiş kəşflər arasında qurulmuşdur.[8] Bütün bu həyat gerçəkliklərini izləyən, "Demokl qılıncı" kimi binəsib

[7] "Turan çələngi" toplusu, 1992-ci il, s.504.
[8] M.Mirzə, *Bəxtiyar Vahabzadə ilə müsahibə,* "Panorama" qəzeti, 17 dekabr, 1997.

xalqların başı üzərində dayanan Qorxu rejiminə qarşı asi çıxmağı bacaran B.Vahabzadə elə həmin Qorxu rejiminin, yəni sovet imperiyasının hökm sürdüyü dönəmdə məşhur "İki qorxu" adlı şeirini yazmaqdan çəkinmirdi:

Səhrada göyərən bir qanqal təki
Bizim içimizdə kök atdı qorxu.
Yalanla həqiqət arasındakı
Halal sərhədləri dağıtdı qorxu.
Boğub həqiqəti, yalan öyündü,
Əsl mənasını itirdi söz də...[9]

Ədəbi camilərdə "Haqq və xalq dostu, qəmiylə vəhdətdə olmağı bacaran", "millətin ağrıyan canı", "Vətənin bütöv oğlu" deyə dəyərləndirilən, haqqı uca tutulan B.Vahabzadə ilk növbədə məntiq və hikmət ustası, mərifət və həqiqətin araçılığı ilə haqqa yürüyən, ruhumuzun azman ifadəçisi, səsi idi. Öz bənzərsiz yaradıcılığı, bitkin şəxsiyyəti ilə daim anladır ki: "Düşmənə nifrət baş silahdır. Sizinlə savaşanlarla savaşın, haqqınızı qoruyun, yurdunuza, milli dəyərlərinizə sahib çıxın!"

O, öz millətinin aşiqiydi, şəxsi həyatında, yaşamında, sənətində Məcnun sevdası yaşatmağın ustasıydı. Onun şair qəlbi köklü milli həyəcanlarımızın yorulmaz təbilçisiydi. O, "düşmənin ciddiliyini zarafatla, zarafatını ciddiliklə dəf edən müdrik" kimi yazıb-yaradırdı.

Məlumdur ki, sovet rejiminin zorən tətbiqi ədəbiyyatımızda az öncə daha qabarıq şəkildə özünü büruzə verməyə başlayan milli ləyaqət, özünüdərk duyğusunun gəlişməsini əngəllədi, bu prosesi yarımçıq qoydu. Eyni zamanda, konkret olaraq xalqımızın milli oyanış əzminə güclü zərbə vurdu. Rejimin antimilli təbliğat kompaniyası, xalqı öz kökündən, milli kimliyindən, keçmişindən, tarixi statusundan məhrum etmək siyasəti Azərbaycan insanının dünya müstəvisində təklənməsinə gətirib çıxartdı. Öz genetik kodu və milli müəyyənliyi ilə bağlı düşüncələrinin bədii mətnə köçürülməsinin qadağalarını yaşaması, həmçinin, dünya məkanında gedən proseslərdən təcrid olunaraq qapalı məcrada fəaliyyət göstərməsi ona sosial statusunu fərqləndirmə və fərdiləşdirmə imkanı vermədi. Yalnız ötən əsrin 60-cı illərindən başlayaraq, insanın özünə dönüşünə, öz fərdi, eləcə də vətəndaş hisslərini ifadə edə bilməsinə imkan yarandı. Ancaq həqiqət naminə onu da qeyd etmək lazımdır ki, adı çəkilən həmin 60-cı illərə qədər də bu və ya digər şəkildə sovet sisteminin, totalitar rejimin gizlinlərinə işıq tutan ədəbi-bədii nümunələr yetərincə yazılmışdır. Sadəcə, bu fikirlər daha çox sətiraltı mənalarda, Ezop dilində öz ifadəsini tapmaqdaydı. Əsl ziyalılar, cəmiyyətin qabaqcıl insanları bu mətləbləri açan bilən kodlarla yaxşı tanış idilər. Belə yaradıcılıq nümunələri B.Vahabzadə

[9] Ali Yavuz Akpınar, ''Bəxtiyar Vahabzadə'', *Kardaş Edebiyyatlar Dergisi*, 1989, S. 18, s.10-20.

poeziyasının aparıcı qolunu təşkil edir. Təbii ki, "Gülüstan", "Leninlə söhbət" birdən-birə araya-ərsəyə gəlməmişdi. Bu əsərlər uzun yaradıcılıq yolu keçib gəlmiş, daxili təbəddülatlar yaşamış, öz içərisində burum-burum tüstülənib, qovrulmuş və bu duyğular qovşağında müdrikləşmiş bir sənətkarın yaratdığı möhtəşəm abidələrdir. Bu tipli əsərləri yalnız uzun sənələr boyunca ürəyindən əsl həyat həqiqətlərini yazmaq istəyi keçən, buna çaba göstərən və ayrı cür yazmağı bacarmayan qələm adamları yaza bilərdi. Bunu ancaq ədəbiyyata mənsəb yox, ümid mənbəyi kimi baxanlar nail ola bilərdilər.

**3-Düşüncə birliyi: Ç.Aytmatov və B.Vahabzadə**

B.Vahabzadə üçün poeziya, sənət möhtəşəm ümid işığı, dözüm qapısı idi. O, bu qapını xalqın milli-mənəvi dəyərlərinin xilası naminə açmağı ləyaqətlə bacardı. Həmişə inamlı oldu, əsərlərilə ilk növbədə inam, dözüm, cəsarət anlayışı təbliğ etdi və yazdı:

Nə şöhrət, nə mənsəb, nə dövlət, nə var...
Ey könül, dünyadan sən ümid istə.
Bir il bir an kimi görünər mənə,
Ümid ver mənə!
Həsrət vüsal qədər xoş gələr mənə,
Ümid ver mənə,
İnam ver mənə![10]

Bu inam böyük şairə hər cür zorakılığı, qəsbkarlığı, özünəxəyanətə, haqsızlığa qarşı etiraz edə bilmək gücü verir. Türk dünyasının dahi yazıçısı Çingiz Aytmatov kimi Bəxtiyar Vahabzadə də bütün yaradıcılığı boyu insanı tarixindən, genindən, yaddaşından qoparmağa çalışan, yadlaşdıran, onu robota çevirən, manqurtlaşdıran hər cür eybəcərliyə qarşı kəskin bir nifrət, etiraz var.

Ç.Aytmatov və Bəxtiyar Vahabzadəni, bu iki qüdrətli şəxsiyyəti bir-birinə yaxınlaşdıran da ədəbiyyata, poeziyaya bəslədikləri bu münasibət, yəni Türkçülüyə olan böyük sevgisi fikirdə, əqidədəki birlik idi. Ç.Aytmatov hər zaman B.Vahabzadəyə qüdrətli bir şair kimi dərin hörmət və rəğbət hissi bəsləmişdir. O, yazırdı: "Bizi əhatə edən aləmdə hər nə varsa, şairi dərindən düşündürür: xeyir və şəri, gözəlliklə eybəcərliyi, böyüklüklə kiçikliyi, bir sözlə, insan ruhunun ali və xırda duyğularını poeziya səviyyəsinə qaldırmaq Bəxtiyarın fitrətindədir. Mütəfəkkir sənətkarın, ustad şairin başlıca qayəsi və uğuru bundadır. O vətənpərvərdir, O aqildir, sözün yaxşı mənasında nəsihətverən, yolgöstərəndir, sənətkardır."[11]

---

[10] Bəxtiyar Vahabzadə, *Əsərləri*, C.I, Odər, Bakı 2004, s.41.
[11] Çengiz Aytmatov, ''Bahtiyar Vahapzadənin şiiri üzerinə -Yaradıbdır inam məni, mən inamın övladıyam", *Türk Edebiyyatı Dərgisi*, Ocak, 1984, S.123, s.66.

Əqidə birliyi, Vətən sevgisi, həm də bir insan olaraq çox yaxın dostluq münasibətləri bu böyük şəxsiyyətləri bir-birinə daha da doğmalaşdıran əsas məqamlardan biri idi...

Ç.Aytmatov B.Vahabzadə yaradıcılığından danışarkən buradakı Şərq ruhunu xüsusi qeyd edirdi: "Bəxtiyar Vahabzadə bütün ölkədə tanınan və sevilən şairdir. Onun poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb".

Hər iki sənətkarın yaradıcılığındakı milli ruh, soy-kökə bağlılıq onları birləşdirən əsas xüsusiyyətlərdən biri kimi meydana çıxır.

Eyni zamanda hər iki görkəmli sənətkarı birləşdirən onların mənsub olduqları millətin acılarına çox yaxından bələd olmaları, bağlılıqları idi. Hər iki sənətkarın mənsub olduqları xalq öz milli acılarını, sıxıntılarını çox vaxt onların möhtəşəm, həqiqət naminə yazılmış əsərlərinin araçılığıyla daha dərindən dərk edir, anlayırdı.

**4-"Gülüstan"**

Görkəmli türk şairi Y.K.Bayatlı "Egil dağları" adlı əsərində yazır ki, İzmirə yunan basqınından sonra Anadoluda birdən-birə parlayan müqəddəs ataş və tökülən müqəddəs qan bu milləti birləşdirən, bir arada yaşadacaq iki ünsürdür: "Vətən acılarını dadmadan əvvəl bu həqiqəti anlamırdıq".

Necə ki, "Gülüstan"ı oxumayınca, Azərbaycan insanı çarizmin, eləcə də rus imperiyasının o tay-bu tay Azərbaycana yaşatdığı həyatın acısını elə də dərindən hiss etmirdi. B.Vahabzadə "Gülüstan" poeması ilə bu acı həqiqətin pərdəsini götürdü, ağrının əsl adını anlatdı. B.Vahabzadə "Gülüstan"la xalqın danışan dilinə, haqq bağıran səsinə döndü. Anlatdı ki:

Şair susdurulan gerçəyin dili,
Şair ədalətin, haqqın vəkili.
Şair haqq yolunda keçər canından,
Keçməz öz eşqindən, öz vicdanından.

Öz eşqindən, vicdanından keçməyən şair "Gülüstan"la milli-mənəvi dünyamızın, yaddaşımızın keçilməz yolunu açdı. Cavabsız sualları ilə xalqa yaşadılan acıların pərdəarxası cavablarını anlatmış oldu:

Başı kəsiləndə bu məğrur elin,
Könül fəryadını hiss etdinizmi?
Qoca Füzulinin, igid Babəkin
Etiraz səsini eşitdinizmi?
Cənablar, bir damcı mürəkkəblə siz,
Düşünün, nələrə qol çəkmişsiniz?

"Gülüstan"dan başlayan bu suallar "Şəhidlər"ə qədər qol-budaq atır. Tarixin bütün dönəmlərində xalqımızı addım-addım izləyən hər cür haqsızlığa, zorakılığa qarşı etiraz səsi kimi yaddaşı oyadır. Milli qınaq mesajı verir. Hər cür susqunluğa, biganəliyə üsyan edir:

Şəhidlərin, köçkünlərin
Üstümüzdə bir ahı var.
Çatdığımız bu nöqtədə
Hamımızın günahı var.
Gerçək budur bu dünyada –
Gücün varsa sözün haqdır.
Gücün yoxsa – son əlacın
Utanmaqdır, utanmaqdır.[12]

Bəxtiyar Vahabzadə bütün yaradıcılığı boyunca öz doğma yurdunun, el-obasının, məmləkətinin adi qayasını, daşını belə Vətənə çevirən, vətənləşdirən dəyərlərin tərənnümşüsü olub. Onun poeziyası ədalətli bir dünyanın, insaflı aləmin havasına uçunub, türkçülük ideyalarının daşıyıcısı kimi sevilib. İmana, inama səsləyib. Allahı xatırladıb:

Bu dağı, bu daşı min ildən bəri
Vətənə çevirən əzan səsləri
Nə imiş? Əcaba, nə deyir o səs?
Göylərə yönələn o kayıp nəfəs?
Nədir o səsdəki əzəmət, kədər,
Genişlik, ənginlik sonsuza qədər.
Yerləri göylərə bağlayan dirək,
Göyləri yerlərə bağlayan dilək?[13]

Bu, şair heyrətidir; milli özünüdərk, milli düşüncə və milli yaşam, idrak önündə sufi bir əxlaqla aləmin dərkinə can atan heyrət!

Bəxtiyar Vahabzadə sovet həyat tərzinin, totalitarizmin gerçək mahiyyətindən bəhs edərkən də eyni heyrət duyğusu ilə üzbəüz qalır. Tərəddüdlər, yanlışlıqlar aləminin bürküsündə çaşıb qalan sovet insanının acınacaqlı durumu Bəxtiyar qələminin sərrast, dəqiq, ifadəli cizgiləri ilə göz önünə gətirilir. Bu aləmdə bütün həyatını özgələr kölgəsində kölgələnən amalsız kəslərə qarşı səsləndirilən

Sənin kölgən hanı bəs?

---

[12] *Türk dünyasının Bəxtiyarı*....s.195.
[13] *Türk dünyasının Bəxtiyarı*, s.167.

Varmı səndə bir müqəddəs
Fikir, dilək, eşq, həvəs –

Suala cavab vermək çox çətindir. Şair bu kölgəsizliyin gerçək adını obrazlı şəkildə ustalıqla ifadə edir; Yol adlı ömürdə izi olmamaq, sözü olmamaqdır bu kölgəsizlik. Şair fərqindədir ki, bu kölgəsizliyin səbəbi əslində yaşanan cəmiyyətdə, bu cəmiyyətin totalitar mahiyyətindədir. Totalitar sistem, rejim belə tələb edir, onun ölçülərindən kənara çıxmaq təhlükəyə, ölümə qarşı yürümək, ölümü öz üzərinə çəkməkdir.

**Nəticə**

Bütün bu hadisələrin fonunda Bəxtiyar Vahabzadə milli-mənəvi dəyərlərimizdən irəli gələn vəfa, etibar, dostluq duyğularını tərənnüm və təbliğ edir. Qürur, ləyaqət hissinin, xeyirxahlğığın əsl dəyər ölçüsü olduğunu anladır. Anladır ki, milli-mənəvi yaddaş insanın özünütəsdiq prosesində tənzimləyici rolu oynayır. Heç bir sistemin, totalitarizmin basqısı milli-mənəvi yaddaşın ruhunu, əzmini sonacan qıra bilmir. Yaddaş bütövlüyü milləti millət yapan başlıca faktordur.Milli-mənəvi yaddaş mövzusu şairin yaradıcılığında hələ sovet dönəmində əsaslı yer almışdır.Bütün bunlar sistemli, həm də Türk dünyası ilə əlaqəli, əsas faktlar kontekstində analitik təhlil olunaraq belə nəticəyə gəlinir ki, Bəxtiyar Vahabzadə yaradıcılığında mənəvi yaddaş, düşüncə türk ruhu ilə, türk mənşəyi və qədim türk tarixi, müasir Türkiyə ədəbi mühiti ilə sıx bağlı olan fenomenal bir hadisədir.

**İstifadə olunan ədəbiyyat**

*"Turan çələngi"* toplusu, 1992-ci il, s. 504.

AKPINAR, A. Y., ''Bəxtiyar Vahabzadə'', *Kardaş Edebiyyatlar dergisi*, 1989, S.18, s.10-20.

AYTMATOV, Ç., *Bahtiyar Vahapzadənin şiiri üzerinə, "Yaradıbdır inam məni, mən inamın övladıyam"*, Türk Edebiyyatı Dərgisi, Ocak, 1984, S. 123, s.66.

QAFAROV, R., *B.Vahabzadənin əsərlərinin VIII cildinə yazılmış ön söz*, Bakı 2009.

M. MİRZƏ, *Bəxtiyar Vahabzadə ilə müsahibə*, Panorama qəzeti, 17 dekabr, 1997.

*Türk dünyasının Bəxtiyarı*, Təfəkkür nəşriyyatı, Bakı 2002.

VAHABZADƏ, B. *Seçilmiş əsərləri*. C.I, Öndər nəşriyyat, Bakı 2004.

VAHABZADƏ, B., *Əsərləri*, C.XII, (Yayınevi yok), Bakı 2009.

VAHABZADƏ, B., *Əsərləri*, C.VI, Elm nəşriyyatı, Bakı 2008.

VAHABZADƏ, B., *Seçilmiş əsərləri*, C.II, Azərnəşr, Bakı 1975.